# Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin hüquqi mexanizmləri



***Hər il sentyabrın 21-də bütün dünyada olduğu kimi Azərbaycanda da qeyd olunan Beynəlxalq Sülh Günü BMT tərəfindən 1981-ci ildə təsis edilib. 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh Günü üçün 21 sentyabrı dəqiq tarix kimi müəyyənləşdirib və bu günü ümumdünya atəşkəs günü elan edib.***

Qeyd edək ki, silahların susmasına və qeyri-zorakılığa həsr olunan Beynəlxalq Sülh Gününün bu iki mövzusu diqqəti daha çox aktual sülh və demokratiya məsələsinə cəlb edir. İnsan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir. Bu məqaləmizdə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının qorunması sisteminin xüsusiyyətlərindən bəhs edəcəyik.

1995-ci il noyabrın 12-də, ümummilli lider Heydər Əliyevin rəhbərliyi, təşəbbüsü və əsas müəllifliyi ilə qəbul edilmiş Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcını qoymuşdur. Konstitusiya insan hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyən etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarına önəm verən ən demokratik konstitusiyalardan biridir. 5 bölmə, 12 fəsil və 158 maddəni özündə birləşdirən bu Ali Qanunun bütöv bir fəsli və 60-a yaxın maddəsinin (Konstitusiyamızın təqribən üçdə iki hissəsinin) məhz insan hüquq və azadlıqları ilə bilavasitə bağlılığı dövlətimizin hüquqi və demokratik prinsipləri uca tutduğunu, demokratik cəmiyyət və demokratik dövlət quruculuğuna necə böyük önəm verdiyini təsdiq edir. Sənədin 2-ci bölməsinin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəsli insan hüquqlarının geniş dairəsini əhatə edən 48 maddəni özündə əks etdirir.

Konstitusiyanın 151-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrdə nəzərdə tutulan insan hüquq və azadlıqları Azərbaycan ərazisində birbaşa tətbiq gücünə malikdir.

İkinci Dünya Müharibəsindən sonra insan hüquqları məsələsi beynəlxalq xarakter daşımağa başlayıb. Birləşmiş Millətlər Təşkllatının 26 iyun 1945-ci ildə imzalanmış Nizamnaməsində insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsi beynəlxalq hüququn əsas prinsirlərindən biri kimi təsbit edilir.

BMT Baş Məclisinin 10 dekabr 1948-ci ildə qəbul etdiyi "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" insan hüquqları sahəsində beynəlxalq standartlar müəyyən edən ilk sənəddir. Lakin Bəyannamə tövsiyyə xarakterli sənəd olduğundan BMT-nin üzvü olan dövlətlər üçün məcburi öhdəliklər müəyyən etmir.1966-cı ilin dekabr ayının 16-da BMT Baş Məclisinin qəbul etdiyi 2 mühüm sənəd - "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" və "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt" insan hüquqları sahəsində dövlətlər üçün məcburi öhdəliklər və standartlar müəyyən edir.

Azərbaycan Respublikası 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür. Azərbaycan Respublikası 21 iyul 1992-ci ildə "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" və "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"a, 2001-ci ilin dekabr ayının 25-də isə "Əsas hüquqların və azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına, eyni zamanda insan hüquqları və azadlıqlarına dair BMT-nin, ATƏT-in və Avropa Şurasının əksər sənədlərinə qoşulmuşdur.

Hüquq və azadlıqların universal xarakteri onların yaranmasının mexanizmini və əsaslarını ifadə edir. Belə ki, Konstitusiyaya uyğun olaraq insan anadangəlmə, yəni doğulduğu vaxtdan etibarən Konstitusiya və qanunlarla elan olunmuş hüquq və azadlıqlara malik olur, onların daşıyıcısına çevrilir.

Hüquq və azadlıqların toxunulmazlığı onlara hər cür qanunsuz və özbaşına qəsdin yolverilməzliyini ifadə edir. Hüquq və azadlıqların pozulmazlığı insan hüquqları və azadlıqlarının aliliyini, oların hər hansı normativ akt və ya vəzifəli şəxs tərəfindən ləğv olunmasının, yaxud özbaşına məhdudlaşdırılmasının yolverilməzliyini müəyyən edir. Ayrılmazlıq hüquq və azadlıqların insan iradəsindən asılı olmayaraq mövcud olduğunu, ictimai varlıq kimi insanın təbiətindən irəli gəldiyini, onun zəruri atributu olduğunu ifadə edir.

Hüquq və azadlıqların universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı bütövlükdə onu ifadə edir ki, dövlət heç vaxt insanı onun hüquqlarından və azadlıqlarından məhrum edə bilməz.

İnsan hüquq və azadlıqlarının universallığı, toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı bir prinsip kimi Azərbaycan Respublikası Konstitusiyanın 24-cü maddəsində təsbit olunur. Həmin maddədə müəyyən edilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

Hüquq və azadlıqların toxunulmazlığı, pozulmazlığı və ayrılmazlığı Konstitusiyanın 155-ci maddəsinin belə bir müddəası ilə də təmin olunur ki, Konstitusiyanın insan hüquqları və azadlıqlarını nəzərdə tutan müddəalarının məhdudlaşdırılması haqqında təkliflər Konstitusiya dəyişikliyinin predmeti ola və referenduma çıxarıla bilməz.

İnsan hüquq və azadlıqlarından Konstitusiya ilə təsbit olunmuş prinsiplərindən biri də hüquq və azadlıqların təminatlı olmasıdır. İnsan hüquq və azadlıqların təminatlı olması hər bir insana öz əsas hüquqlarından və azdlıqlarından istifadə üçün imkan yaradılmasını ifadə edir. Başqa sözlə, dövlət insan hüquqları və azadlıqlarının bütün mümkün vasitələrlə real surətdə həyata keçirilməsini təmin etməyə borcludur.

İnsan hüquqları və azdalıqlarının təminatlı olması "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın 2-ci maddəsində təsbit olunmuşdur. Həmin maddədə nəzərdə tutulur ki, hər bir dövlət aşağıdakıları öhdəsinə götürür:

a) elan olunmuş hüquq və azadlaqları pozulmuş hər hansı şəxsi, əgər həmin pozuntu rəsmi səviyyədə fəaliyyət göstərən şəxs tərəfindən törədilmiş olsa da, təsirli hüquqi müdafiə vasitələri ilə təmin etmək;

b) belə müdafiəyə ehtiyacı olan hər bir şəxsin hüquqi müdafiə hüququnun səlahiyyətli məhkəmə, inzibati, yaxud qanunvericilik hakimiyyəti orqanları, yaxud dövlətin hüquq sisteminin nəzərdə tutduğu digər səlahiyyətli orqan tərəfindən bərqərar olmasını təmin etmək və məhkəmə tərəfindən müdafiənin imkanlarını inkişaf etdirmək;

c) nəzərdə tutulduğu hallarda, səlahiyyətli hakimiyyət orqanlarının hüquqi müdafiə vasitələrinin tətbiq olunmasını təmin etmək.

Beynəlxalq Paktın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinin birinci hissəsində insan hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədlərindən biri kimi elan edilir. Konstitusiyanın 26-cı maddəsində təsbit olunur ki, dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Konstitusiyanın 71-ci maddənin birinci hissəsinə əsasən Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

İnsan hüquq və azadlıqlarının təminatlı olması dövlət tərəfindən həmin hüquq və azadlıqların həyata keçirilməsinin və müdafiəsinin səmərəli hüquqi mexanizmlərinin və zəruri qanunvericilik bazasının yaradılmasını nəzərdə tutur.

Belə hüquqi mexanizm kimi ilk növbədə məhkəmələr çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. Konstitusiyanın 71-ci maddənin yeddinci hissəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin Konstitusiya ilə nəzərdə tutulmuş digər mühüm vasitəsi insan hüquqları üzrə Müvəkkildir (Ombudsmandır). İnsan hüquqları üzrə müvəkkilin yeganə və əsas funksiyası Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsidir. Azərbaycan Respublikasının istənilən vətəndaşı, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxs dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulduğu güman edilən hüquqlarının və azadlıqlarının bərpası üçün ombudsmana müraciət edə bilər.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin Konstitusiya ilə nəzərdə tutulmuş digər mühüm vasitələrindən biri də vətəndaşların müraciətləridir. Konstitusiyanın 57-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Vətəndaşların dövlət orqanlarına müraciəti müxtəlif məsələlərə, o cümlədən onlara məxsus subyektiv hüquq və azadlıqların həyata keçirilməsinə və pozulmuş hüquqların bərpasına aid ola bilər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə baxılmalı və müraciət edən şəxsə yazılı cavab verilməlidir.

Konstitusiyaya görə Azərbaycan Respublikasında insan hüquqları və azadlıqları birbaşa qüvvədədir (71-ci maddənin altıncı hissəsi). Bu müddəanı belə başa düşmək lazımdır ki, bir tərəfdən məhkəmələr və digər dövlət orqanları, vəzifəli şəxslər insan hüquqları və azadlıqları ilə bağlı hər hansı məsələyə baxarkən Konstitusiyanın normalarını birbaşa tətbiq edə bilərlər; digər tərəfdən isə, insanlar birbaşa Konstitusiya normalarına istinad edərək öz hüquq və azadlıqlarını həyata keçirə və müdafiə edə bilərlər. Başqa sözlə, Konstitusiyada elan olunmuş insan hüquqları və azadlıqlarının həyata keçirilməsi, təmini və müdafiəsi onlara dair müvafiq qanunvericilik aktlarının olub-olmamasından asılı deyildir.

Bütün bunlarla yanaşı, insan hüquqları və azadlıqlarına dair cari qanunvericilik aktlarının rolunu qiymətləndirməmək olmaz. Bu qanunvericilik aktlarında Konstitusiya ilə elan olunan insan hüquqları və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi üçün hüquqi mexanizm müəyyən edilir. Cari qanunvericilik aktları bir tərəfdən Respublika Konstitusiyasının normalarına, digər tərəfdən isə Azərbaycanın iştirakçısı olduğu beynəlxalq müqavilələrə uyğun olmalıdır.

İnsan hüquqlarının qorunması sistemi möhtərəm, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf etdirilmişdir. Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsinə dair imzaladığı Sərəncam mühüm əhəmiyyətə malik olmuşdur. 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"-nın təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyaraq, eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir.

Azərbaycan bu gün yeni situasiya və dövrün çağırışlarından irəli gələn islahatlar mərhələsini yaşayır. Xüsusilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumdan sonra Azərbaycanda səmərəli və çevik dövlət idarəçiliyi mexanizminin formalaşdırılması, həyata keçirilən iqtisadi islahatların effektivliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanılmışdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin davamı olaraq yeni bir tarixi mərhələni yaşayırıq. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar strategiyasının mərkəzində Azərbaycan insanı, onun hüquq və azadlıqlarının təminatı, sosial rifah halının yaxşılaşdırılması dayanır. Bütün bunlar ölkədə insan hüquqlarının etibarlı təminatının xüsusilə diqqət mərkəzində saxlandığını göstərir.

**Zamir PAŞAYEV,**
**rayon prokurorunun köməkçisi,**
**ikinci dərəcəli hüquqşünas.**